# MADLEN

*hekayə*



Sadiq HİDAYƏT

Sırağagün gecə orada idim – o kiçik qəbul otağında. Anası ilə bacısı da oradaydılar, anası kül rəngi, qızları isə qırmızı rəngdə paltar geyinmişdilər, oradakı oturacaqlar da qırmızı məxmərdən idi. Mən dirsəyimi pianinonun üstünə qoyub, onlara baxırdım. Qara val üzərində gəzinərək, “Volqa gəmiçiləri” adlı həyəcan və kədər dolu musiqi yayan qrammofon iynəsindən başqa hamı susmuşdu. Küləyin nəriltisi eşidilirdi, pəncərə şüşəsinin bayır səthinə dəyən yağış damlaları yayılaraq uzanır, musiqinin yeknəsəq səsinə qarışırdı.

Bərabərimdə oturan Madlen dalğın və donuq bir halda başını əlinə dayayıb qulaq asırdı. Mən oğruncasına onun qıvrım və xurmayı saçlarına, çılpaq qollarına, boynuna, yandan uşaq üzünü xatırladan çöhrəsinə və diri başına baxırdım. Ondakı bu əhval mənə süni görünürdü. Düşünürdüm ki, o həmişə qaçmalı, oynamalı, zarafatlaşmalıdır. Təsəvvür edə bilmirdim ki, onun da beyninə fikir gələ bilər. İnana bilmirdim ki, onun da qəmli olması mümkündür. Ondakı uşaqlıq və laqeydlik halı mənim də xoşuma gəlirdi.

Üçüncü dəfə idi ki, onunla görüşürdüm. Onlarla ilk dəfə dəniz qırağında tanışlığımız olmuşdu, amma o gündən bu yana çox dəyişib. Özü kimi bacısı da üzgü paltarı geyinmişdi, azad bir davranışa və açıq simaya malik idilər. Onda uşaqlara məxsus şeytan haləti və parlaq gözlər var idi. Qürub yaxınlaşırdı, dənizin dalğası, kazino musiqisi – hamısı yadımdadır. İndi isə solğun, dalğın və başıaşağı halda bu ilin dəbinə uyğun qıpqırmızı və dabanlarına qədər uzanan ətəkləri olan geyimlərdə yaşayırlar!

Dəniz dalğasının səsinə bənzər



uzaq və boğuq bir avaza malik olan val dayandı. Anaları məclisi qızışdırmaq üçün qızlarının məktəbi və işi barədə söhbət edərək deyirdi: “Madlen rəsm üzrə birinci şagird olub”. Bu vaxt bacısı mənə göz vurdu. Mən də üzdə gülümsəyərək, onların suallarına qısa və səthi cavablar verirdim. Amma fikrim başqa yerdə idi, özümün onlarla ilk tanışlığımı düşünürdüm. Təqribən iki ay bundan qabaq – keçən yay tətili sahilə getmişdim. Yadımdadır, günortadan sonra saat dörddə – havanın isti və qarışıqlığın sıx olduğu bir vaxtda dostlarımdan biri ilə Trovilə gedib, dəmir yolu dayanacağının qarşısında avtobus tutduq. Avtobusumuz cəngəlliklə əhatəli sahildən yüzlərlə avtomobil, siqnal səsi, havaya səpələnmiş yağ və benzin iyinin arası ilə hərəkət edirdi. Hərdən də ağacların arxasından dəniz mənzərəsi nəzərə çarpırdı.

Sonda dayanacaqlardan birində endik, bura Vilrovil idi. Hər iki tərəfinə daş və gil divarlar çəkilmiş bir neçə alçaq və hündür küçəni keçərək, Taftun çörəyi şəklində olan və sahilin dikində yerləşən kiçik bir çimərliyə çatdıq. Dənizə baxan ərazidə kiçik bir kazino nəzərə çarpırdı, onun ətrafında – təpənin yamacında isə evlər və kiçik villalar inşa edilmişdi.

Balaca uşaqlar ya tək, ya da anaları ilə birlikdə sahilin aşağı hissəsində – dəniz suyunun ləpələndiyi yerdən azca aralıda yerləşən qumluqda topla və palçıqla oynamağa məşğul idilər. Bir dəstə qadın və kişi qısa alt tumanı və bədənlərinə yapışan köynəkdə üzür, bir az suda qaçışdıqdan sonra quruya çıxırdı, bir dəstə isə qumluqda günəşin qabağında oturmuş və ya uzanmışdı. Qoca kişilər rəngbərəng, zolaq-zolaq çətirlərin altına sərələnərək qəzet oxuyur, göz altından qadınlara tamaşa edirdilər. Biz də kazinonun qabağına gedib, suyun önünə çəkilmiş hündür və enli bəndin qırağında arxamız dənizə sarı oturduq. Günəş qüruba yaxınlaşır, dənizin suyu qalxır, dalğalar sahilin kənarına çırpılır və günəşin işığı dalğaların üstündə dişli üçbucaq şəklində parıldayırdı. Dənizin duman və buxarının arasından Havr limanına doğru irəliləyən qara rəngli böyük bir gəmi görünürdü.

Hava bir az sərinləşdi, aşağıda olan adamlar az-az yuxarı gəlirdilər. Bu vaxt gördüm ki, dostum ayağa qalxdı və bizə doğru yaxınlaşan iki qıza əl verib, məni onlara təqdim etdi. Onlar da gəlib, bizim yanımızda – bəndin qırağında oturdular. Madlen əlində böyük bir top gəlib, yanımıza oturdu və söhbətə başladı, elə bil ki, neçə ildir məni tanıyır. Hərdən ayağa duraraq, əlindəki topla oynayır, yenə gəlib, yanımda otururdu. Mən zarafatla topu onun əlindən dartırdım, o da geri çəkirdi. Əllərimiz bir-birinə toxunurdu, az-az bir-birimizin əlini sıxırdıq, əlində incə bir hərarət var idi. Gözaltı sinəsinə, çılpaq ayaqlarına, başına və boynuna baxırdım. Öz-özümə düşünürdüm ki, başımı onun sinəsinə qoyub, elə buradaca – dənizin qabağında yuxuya getsəm, nə gözəl olar.

Günəş qürub etdi, ay öz solğun rəngi ilə bu kiçik və hər yerdən uzaq, əlçatmaz olan çimərliyə ailəvi və səmimi bir əhvali-ruhiyyə bəxş etmişdi. Qəfildən kazinodan rəqs musiqisinin səsi yüksəldi və əli əlimdə olan Madlen “Missisipi” adlı amerikan rəqs mahnısını oxumağa başladı. Onun əlini sıxırdım, mayakın işığı uzaqdan suyun üstündə parlaq bir yarımdairə çəkir, sahil kənarına çırpılan suyun gurultusu eşidilir və önümüzdən adam kölgələri keçirdi.

Bu görüntülərin gözümün önündən keçdiyi bir vaxtda anası gəlib, pianinonun qarşısında oturdu. Mən özümü kənara çəkdim, bir də gördüm ki, Madlen lunatiklər kimi yerindən qalxdı və gedib, masanın üstünə tökülmüş not vərəqlərini qarışdırdı. Onlardan birini ayırdı və aparıb, anasının üzbəüzünə qoydu. Sonra üzündə təbəssüm gəlib, yanımda dayandı. Anası pianino çalmağa başladı, Madlen də asta-asta oxuyurdu. Bu, Vilrovildə eşitdiyim həmən rəqs mahnısı idi – həmən “Missisipi”...